mr.fix
Yapı Kimyasalları

# mr.Seal DW®

## Sement və akrilik əsaslı, iki komponentli, mənfi-müsbət yöndən tətbiq oluna bilən su izolyasiya materialı

Məhsul kodu: A Komp.: 30.25.008
B Komp.: 30.02.009




### Məhsul haqqında

**mr.Seal DW®** sement və akrilik əsaslı, iki komponentli, sızma və səth sularına qarşı beton səthlərə daxildən və xaricdən, mənfi və müsbət yöndən tətbiq oluna bilən, kapilliyar təsirli su izolyasiya materialıdır.

### İstifadə sahələri

- Daxili və xarici məkanlarda, saquli və üfüqi səthlərdə
- Tualet, hamam, mətbəx və balkon kimi su ilə təmasda olan yerlərdə
- Təməl və istinad divarlarında
- Su anbarlarında
- Tunellərdə
- Lift çuxurlarında
- Betonarme borularında
- Beton, su, karbonasyon və buz həll edici duzlardan qorunmaqda
- Duzlu su hovuzlarında
- Balıq saxlama hovuzlarında
- Qida maddələrinin saxlandığı anbarlarda
- Gül qablarının izolyasiyasında istifadə olunur.

### Üstünlükləri

- Müsbət və mənfi su təzyiqlərinə davamlıdır
- Davamlılığı yüksəkdir
- mr.Seal DW®, kapilliyar təsirə sahibdir
- İşlənə bilmə müddəti uzundur
- Büzülmür və çatlamır
- Su keçirməyən xüsusiyyəti olsa da buxar keçirmə xüsusiyyətinə malikdir
- Çox yüksək yapışma müqavimətinə sahibdir
- Asan hazırlanır və tətbiq olunur
- Donma və ərimə prosesinə davamlıdır
- Fırça və ya püskertmə aparatı ilə tətbiq oluna bilər

### Texniki göstəriciləri

| Materialın tərkibi mr.Seal DW® komponent A komponent B | Mineral dolğulu, polimer modifikasiyalı qarışıqlar və xüsusi sement tərkibli Kopolimer Akrilik dispersiya |
|---|---|
| Rəngi | Boz |
| Yapışma müqaviməti | > 1,50 N/mm² (28 gün) |
| Təzyiqli suya müqaviməti | 4 bar mənfi<br>7 bar müsbət |
| Su buxarı keçiriciliyi(H2O) | 86-120 |
| Tətbiq olunacaq səthin istiliyi | +5°C+25°C |
| Xidmət istiliyi | -20°C +80°C |
| Tamamlanma müddəti | 3-5 dəqiqə |
| İstifadə müddəti(+20°C) | 45 dəqiqə |
| Qarışım sıxlığı | ~1,98 kq/litr |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### İstifadə təlimatı

Səthin hazırlanması;
Tədbiq ediləcək səthlərin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasınna diqqət edilməlidir. Səth yapışmanı zəiflədəcək bütün yağ, pas, qatı sürtgü yağı və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalıdır. Səthdəki dəmir və taxta qırıntıları çıxarıldıqdan sonra əgər səthdə onlar əmələ gəlmişşə boşluqlar mr.Waterstoper® və ya mr.Tamcrete 100 TX® ilə doldurulmalı, künc və kənarlar ən azı 4 cm radiusda düzəldilməlidir. Səth tətbiq edilmədən əvvəl su ilə isladılmalı, ancaq göllənmə yaranmamalıdır. Tətbiq zamanı material nəmliyini itirər və tutqun bir görünüş alarsa, bu səthin yetərincə isladılmadığına, yada

sürətli qurumasına işarədir. Belə olduqda, yalnız ilk qat üçün qarışdırma suyu 10% artırıla bilər. Hər bir qat sürtülmədən öncə altdakı qatın quruması gözlənilir. Qatlar bir-birinə əks istiqamətdə sürtülür.

## Hazırlanması

Maye komponent B və tabloda göstərilən miqdardakı su, təmiz bir qaba boşaldılıb, toz komponenet (mr.Seal DW®) yavaş-yavaş əlavə edilərək 400-600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

## Qarışdırma nisbəti

| mr.Seal DW® | Komponent A | Komponent B | Qarışdırma suyu |
|---|---|---|---|
| Qarışım miqdarı | 25 kq | 2 kq | 5,00-5,50 kq |

## Sərfiyyat

1-ci qat: 1,30 kq/m²
2-ci qat: 1,20 kq/m²
3-cü qat: 1,20 kq/m²

## Alətlərinin təmizlənməsi

Tətbiq edilmədən sonra istifadə edilən alət və ləvazimatlar isti su və sabunla təmizlənməlidir. mr. Seal DW® sərtləşdikdən sonra ancaq mexanik üsullarla səthdən təmizlənə bilər

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə, donmadan qorunaraq saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: A Komponent : 25 kq ±2%**
**BKomponent : 2 kq ±2%**